# Azərbaycan Respublikası Təhsil Nazirliyi
# Bakı İdarəetmə və Texnologiya Kolleci

## “Firmanin (müəssisənin) iqtisadiyyatı”

fənninin

## PROQRAMI

040401 -“Mühasibat uçotu”

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı İdarəetmə və Texnologiya Kollecinin Metodiki şurasının 15 sentyabr 2017-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
(Protokol № 1 )

**Bakı-2017**

**Tərtib etdi:**

Bakı İdarəetmə və Texnologiya kollecinin fənn müəllimi

Rüstəmova Solmaz Talış

**Redaktor:**

Bakı İdarəetmə və Texnologiya kollecinin fənn müəllimi

Qəmbərova Sevinc Ağasəf

**Rəy verənlər:**

Bakı İdarəetmə və Texnologiya kollecinin fənn müəllimi

1.Qəmbərova Sevinc Ağasəf

Azərbaycan Memarlıq və İnşaat Universitetinin “Xidmət sahələrinin iqtisadiyyatı və menecment” kafedrasının dosenti i.ü.f.d.

2.Yusifov Elşad Məsim

## İZAHAT VƏRƏQİ

**Fənnin tədrisinə ayrılan saatların miqdarı: 60 saat**

“Firmanın (müəssisənin) iqtisadiyyatı” kursu ümumi iqtisadi ixtisaslar üzrə kadr hazırlanması prosesində tədris olunan fənlərdən biridir. Kursun tədrisində məqsəd bazar münasibətləri şəraitində firmaların (müəssisələrin ) iqtisadiyyatının əsasları haqqında zəruri bilikləri verməkdir.

Tədris proqramının məzmunu və quruluşu firmaların iqtisadiyyatı ilə bağlı proseslərin qarşılıqlı əlaqə və asılılığı nəzərə alınmaqla məntiqi ardıcıllıqla qurulmuşdur.

Kursun səmərəli tədrisi və tələbələr tərəfindən asan mənimsənilməsi məqsədi ilə mövzular 15 bölmədə qruplaşdırılmışdır.Kursun proqramının birinci bölməsində onun vəzifələri və predmeti, ikinci bölmədə bazar iqtisadiyyatı şəraitində istehsal müəssisələrinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsinə, onların bazar əlaqələrinin öyrənilməsinə xüsusi yer verilmişdir.

Firmaların təşkilati-hüquqi formalarının səciyyəsi, onların təsnifləşdirilməsi, istehsal quruluşu və onun tiplərinin ətraflı öyrənilməsi nəzərdə tutulmuşdur.

Bazar iqtisadiyyatının yaranması, respublikamızda özəlləşdirmənin həyata keçirilməsi iqtisadiyyatda, eləcə də sənaye müəssisələrində sahibkarlıq fəliyyətinin yeni vüsət almasına səbəb olmuşdur. Proqramda sənayedə sahibkarlıq, onun inkişaf mərhələsi, formaları, növləri və s. ilə əlaqədar məsələnin öyrənilməsinə geniş yer verilmişdir. Respublikamızda mövcud olan istehsal resursları və onlardan istifadə edilməsi, müəssisənin istehsal xərclərinin öyrənilməsi, mənfəət və ona təsir edən amillərin müəyyənləşdirilməsi, vergi sistemi və qiymətin əmələ gəlmə məsələlərinin təhlili zəruri hesab olunmuşdur.

.

## MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | Mövzuların adları | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1. | “Firmanın iqtisadiyyatı” fənninin predmeti və məzmunu. İstehsal firmalarının təsnifatı, quruluşu və formaları. | 2 | 2 |
| 2. | İstehsal firmasında istehsal prosesi və onun təşkili, istehsalın ictimai təşkili formaları. | 2 | 2 |
| 3. | Firmada əmək resursları, əmək məhsuldarlığı və əmək haqqı. | 2 | 2 |
| 4. | İstehsal firmasının əsas fondları. | 2 | 2 |
| 5. | İstehsal firmasının dövriyyə fondları və dövriyyə vəsaitləri. | 2 | 2 |
| 6. | Firmanın idarəetmə mexanizmi. | 2 | 2 |
| 7. | Firmanın istehsal kommersiya fəaliyyətinin planlaşdırılması. | 2 | 2 |
| 8. | Firmanın investisiya fəaliyyəti. | 2 | 2 |
| 9. | Firmanın məhsulunun keyfiyyəti. | 2 | 2 |
| 10. | Firmanın marketinq keyfiyyəti. | 2 | 2 |
| 11. | Firmada maddi texniki təminat. | 2 | 2 |
| 12. | Firmanın istehsal xərcləri və məhsulun maya dəyəri. | 2 | 2 |
| 13. | Firmanın maliyyəsi, gəlirləri və vergi ödənişləri. | 2 | 2 |
| 14. | Firmada qiymətin əmələ gəlməsi. | 2 | 2 |
| 15. | Firmanın xarici iqtisadi fəaliyyəti. | 2 | 2 |
| **Cəmi: 60 saat** | | | |

## MÖVZULAR VƏ ONLARIN İZAHI

***Mövzu 1.* “Firmanın iqtisadiyyatı” fənninin predmeti və məzmunu. İstehsal firmalarının təsnifatı, quruluşu və formaları – 4 saat**

Fənnin predmeti və məzmunu. Müəssisə və firma: oxşar və fərqli cəhətləri.İstehsal firmalarının təsnifatı. İstehsal firmalarının quruluşu və onu müəyyən edən amillər. Firmanın (müəssisənin) yaradılması və ləğvi qaydaları. Sahibkarlıq və firmanın təşkilati hüquqi qaydaları.

***Mövzu 2.* İstehsal firmasında istehsal prosesi və onun təşkili, istehsalın ictimai təşkili formaları - 4 saat**

İstehsal prosesinin mahiyyəti. Firmada istehsal prosesinin təşkili prinsipləri. Firmada istehsalın ictimai təşkili formaları. İstehsalın təmərküzləşdirilməsi, kombinələşdirməsi, ixtisaslaşdırması və kooperasiyalaşması.

***Mövzu 3.* Firmada əmək resursları, əmək məhsuldarlığı və əmək haqqı – 4 saat**

Firmada əmək resursları, əmək məhsuldarlığı və əmək haqqı. Əmək məhsuldarlığının artırılması ehtiyatları, əmək haqqının mahiyyəti və əhəmiyyəti, əməyin ödənilməsinin forma və sistemləri.

***Mövzu 4.* İstehsal firmasının əsas fondları- 4 saat**

İstehsalın əsas fondlarının iqtisadi mahiyyəti, əsas fondların qiymətləndirilməsi, köhnəlməsi, amortizasiyası. İstehsal əsas fondlarından istifadəsinin yekunlaşdırılması yolları.

***Mövzu 5.* İstehsal firmasının dövriyyə fondları və dövriyyə vəsaitləri - 4 saat**

Dövriyyə fondlarının iqtisadi mahiyyəti, tərkibi, firmada maddi resursların normalaşdırılması. Firmada tədavül fondlarının idarə olunması.

***Mövzu 6.* Firmanın idarəetmə mexanizmi - 4 saat**

İdarəetmənin mahiyyəti və prinsipləri, funksiyaları və onların təsnifatı. İdarəetmənin metodları və onların tətbiqi.

***Mövzu 7.* Firmanın istehsal kommersiya fəaliyyətinin planlaşdırılması - 4 saat**

İstehsal firmasında planlaşdırmanın mahiyyəti və prinsipləri, planlaşdırmanın metodları. Firmanın inkişaf planının əsas bölmələri.

***Mövzu 8.*** **Firmanın investisiya fəaliyyəti - 4 saat**

İnvestisiyanın mahiyyəti və növləri, investisiyanın tərkibi və quruluşu. İnvestisiyanın mahiyyəti və növləri, investisiyanın iqtisadi səmərəliliyinin qiymətləndirilməsi.

***Mövzu 9.*** **Firmanın məhsulunun keyfiyyəti - 4 saat**

Məhsulun keyfiyyəti, məhsulun rəqabət qabiliyyəti. Firmada məhsulun keyfiyyətinin idarə edilməsi.

***Mövzu 10.*** **Firmanın marketinq keyfiyyəti - 4 saat**

Firmanın marketinq fəaliyyətinin mahiyyəti və xüsusiyyətləri. Firmada marketinq fəaliyyətinin idarə edilməsi, firma məhsulunun satışında vasitəçilərin rolu.

***Mövzu 11.*** **Firmada maddi texniki təminat - 4 saat**

Maddi texniki təminatın iqtisadi mahiyyəti, maddi texniki təminatın funksiyaları, maddi texniki təminatın formaları-lizinq təchizatın xüsusi forması kimi.

***Mövzu 12.*** **Firmanın istehsal xərcləri və məhsulun maya dəyəri - 4 saat**

İstehsal xərcləri və məhsulun maya dəyərinin mahiyyəti. İstehsal xərclərinin təsnifləşdirilməsi. Məhsulun maya dəyərinin idarə edilməsi.

***Mövzu 13.*** **Firmanın maliyyəsi, gəlirləri və vergi ödənişləri - 4 saat**

Firmanın maliyyəsi və maliyyə resursları. Firmanın gəlirləri və mənfəəti. Firmanın vergi ödənişləri.

***Mövzu 14.*** **Firmada qiymətin əmələ gəlməsi - 4 saat**

Qiymətin əmələgəlmə qanunauyğunluqları, qiymətin funksiyaları və növləri. Firmanın qiymət siyasəti. Firmada qiymətqoyma metodları.

***Mövzu 15.*** **Firmanın xarici iqtisadi fəaliyyəti - 4 saat**

Firmanın xarici iqtisadi fəaliyyətinin mahiyyəti, növləri.Firmanın idxal ixrac əməliyyatları

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Konstitusiyası.Bakı-1995
2. 1995-1998-ci illərdə Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət proqramı. Bakı-1996
3. “Sahibkarlıq haqqında” Azərbaycan Respublikasının qanunu.Bakı-1996
4. “Müəssisələr haqqında” Azərbaycan Respublikasının qanunu.”Biznessmenin bülleteni” Bakı-1996
5. “Məhsulun maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında əsasnamə” 16 avqust 1996-cı il tarixli. Azərbaycan Respublikasının Nazirlər kabinetinin 3 №-li qərarı.
6. Manafov Q.H. “Sahibkarlığın nəzəri praktiki məsələləri” Bakı-1997
7. A.H.Tağıyev və başqaları.Bazar iqtisadiyyatı haqqında . Bakı-1993
8. T.Ə.Hüseynov, Z.S.Abdullayev”Sənaye müəssisələrinin fəaliyyətinin təşkili, planlaşdırılması və idarə edilməsi” Bakı-1990
9. T.Ə.Hüseynov”Sənayenin İqtisadiyyatı” Bakı-1998
10. “Müəssisənin iqtisadiyyatı” (dərslik) M.1996
11. “Firmanın iqtisadiyyatı” (dərslik) Bakı-2009

Bakı İdarəetmə və Texnologiya kollecinin
müəllimi Rüstəmova Solmaz Talış qızının
“ Firmanın iqtisadiyyatı ” fənni üzrə tərtib
etdiyi proqrama

*Rəy*

Tədris proqramının məzmunu və quruluşu firmanın iqtisadiyyatı ilə bağlı proseslərin qarşılıqlı əlaqə və asılılığı nəzərə alınmaqla məntiqi ardıcıllıqla qurulmuşdur.

Firmaların təşkilati-hüquqi formalarının səciyyəsi ,onların təsnifləşdirilməsi , istehsal quruluşu və onun tiplərinin ətraflı öyrənilməsi nəzərdə tutulmuşdur.

Bazar iqtisadiyyatının yaranması, respublikamızda özəlləşdirmənin həyata keçirilməsi iqtisadiyyatda, eləcə də sənaye müəssisələrində sahibkarləq fəaliyyətinin yeni vüsət almasına səbəb olmuşdur.Respublikamızda mövcud olan istehsal resursları və onlardan istifadə edilməsi, müəssisənin istehsal xərclərinin öyrənilməsi, mənfəət və ona təsir edən amillərin müəyyənləşdirilməsi, vergi sistemi və qiymətin əmələgəlmə məsələlərinin təhlili zəruri hesab olunmuşdur.

Yuxarıdakıları nızərə alaraq proqramın kollecin daxili istifadəsi üçün yararlı dərs vəsaiti kimi qəbul olunması tövsiyyə olunur.

Hüseynova S.Ə                    Bakı İdarəetmə və Texnologiya kollecinin müəllimi

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ**

**Kollecin "____________________________" fənn birləşmə komissiyasının**

**"__________" _____________201_-ci il tarixli ___ saylı**

**PROTOKOLUNDAN ÇIXARIŞ**

**Iştirak etdilər:**

1.____________
2._____________
3.______________
4.______________ .......

**Eşidildi:** _______________ qızı (oğlu) tərəfindən yazılmış "__________" fənni üzrə tədris proqramının müzakirəsi və təsdiqi

**Qərar:**

"____________" fənni üzrə ____________________ tərtib etdiyi proqram tədris üçün məqsədəuyğun hesab edilərək bəyənilsin. Proqram təsdiq olunmaq üçün Kollecin pedaqoji şurasının müzakirəsinə verilsin.

"_______________________"
fənn birləşmə komissiyasının sədri: ________

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI İDARƏETMƏ VƏ TEXNOLOGİYA KOLLECİ**

Pedaqoji şuranın "_____" ________201_-ci il tarixli__________saylı

**PROTOKOLUNDAN ÇIXARIŞ**

**Gündəlik məsələ:**

"_____________" fənn birləşmə komissiyasının üzvü ____________ qızı(oğlu) tərəfindən yazılmış "____________" fənni üzrə tədris proqramının müzakirəsi və təsdiqi.

**Qərar:**

Kollecin müəllimi __________________ qızı(oğlu) tərəfindən yazılmış "_____________" fənni üzrə proqrama qrif almaq üçün rəy verilməsini Azərbaycan Respublikası Təhsil Nazirliyindən xahiş edirik.

Bakı İdarəetmə və Texnologiya kollecinin direktoru: ____________

Pedaqoji Şuranın katibi: Ruxsarə Nəsibova